# İBRAHİMOV RASİM SƏXAVƏT OĞLU



İbrahimov Rasim 18 aprel 1962-ci ildə Bakı şəhərinin Əzizbəyov rayonunun Çilov adasında neftçi ailəsində anadan olmuşdur. Səkkizinci sinfə qədər 131 saylı orta məktəbdə təhsil almışdır. 1977-ci ildə C.Naxçıvanski adına hərbi məktəbə daxil olmuş və 1983-cü ildə ali təhsilini başa vuraraq Almaniyaya hərbi qulluğa göndərilmişdir. Motoatıcı tağımda komandir müavini kimi xidmətə başlamışdır. 1988-ci ildə vətənə qayıtdıqdan sonra Bir müddət Respublika Hərbi Komissarlığında çalışır. Sonra Ağsu rayon Hərbi Komissarının müavini vəzifəsinə təyin edilir. Burada işlədiyi müddətdə Baş Qərargahın Saratov şəhərindəki 3 aylıq kursunda oxuyur. Sonra Füzuli rayonunda hərbi komissarın müavini kimi çalışmağa başlayır. Həmin vaxtlar erməni silahlı birləşmələri tez-tez Azərbaycanın sərhəd bölgələrinə hücum edir, kəndləri, şəhərləri atəşə tuturdular. R.İbrahimov bu çətin, qarışıq vaxtda Füzuli rayonunun mərd oğulları ilə birlikdə könüllü özünümüdafiə taboru yaradır. Təcrübəli zabit olduğunu nəzərə alaraq onu tabora komandir təyin edirlər. Tabor Füzuli rayonunun sərhədlərini rəşadətlə qoruyurdu. Döyüşlərdə göstərdiyi şücaətə görə Rasimə mayor rütbəsi verildi. Tabor 1992-ci il iyunun 26-da Tuğ kəndi uğrunda döyüşə atılır. Bir neçə saat çəkən döyüşdə düşmənə ağır zərbələr vurulur və bir neçə mühüm dayaq nöqtəsi ələ keçirilir. Onlar Tuğ kəndinin 5 kilometrliyinə qədər irəliləyirlər. Lakin digər dəstə vaxtında köməyə gəlib çıxmadığına görə tabor mühasirəyə düşür. Cəsur komandir döyüşçülərin mühasirədən çıxması üçün öz canını fəda edir. O, ayağından yaralansa da, döyüşə rəhbərliyi davam etdirirdi. Vəziyyatin ümidsiz olduğunu görən Rasim son anda düşmən əlinə keçməmək üçün əl qumbarası ilə özünü həlak edir. Bakı şəhərindəki Şəhidlər Xiyabanında dəfn edilmişdir. Ailəli idi. Bir qızı, bir oğlu var. Azərbaycan Respublikası Prezidentinin 16 sentyabr 1994-cü il tarixli 203 saylı Fərmanı ilə İbrahimov Rasim Səxavət oğlu ölümündən sonra “Azərbaycanın Milli Qəhrəmanı” adına layiq görülmüşdür. Vaxtilə təhsil aldığı Bakı şəhəri Əzizbəyov rayonunun Çilov adası 131 saylı orta məktəbi onun adını daşıyır. Çilov adasında abidəsi ucaldılmış, adına xatirə bağı salınmışdır.